Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Ailə işlərinə dövlətin daha təsirli müdaxiləsini tələb edən məsələlər var...

**Azərbaycan müstəqillik qazandıqdan, xüsusilə də 1994-cü ildən başlayaraq ölkədə sabitliyin bərqərar olması bir sıra məsələlərin diqqət mərkəzində olmasına gətirib çıxartdı. Onlardan biri də demoqrafik məsələlərlə bağlı idi. Bununla bağlı ölkədə dövlət səviyyəsində bir sıra qanun və qərarlar qəbul edildi. Azərbaycanın konstitusiyası da kişilərə və qadınlara eyni hüquqları verib. Həmçinin Azərbaycan gender bərabərliyinin təmini üçün bəzi beynəlxalq konvensiyalara qoşulub.**



**Demoqrafik inkişaf səviyyəsi iqtisadi artım səviyyəsinə birbaşa təsir edir**

Son iyirmi ildə Azərbaycan Respublikası Hökuməti 1994-cü ildə dünyanın 179 dövləti, o cümlədən Azərbaycan tərəfindən təsdiq edilmiş Qahirə Proqramının müddəalarına uyğun olaraq, əhalinin inkişafı sahəsində bir sıra fəal hərtərəfli tədbirlər həyata keçirir. Ölkə hökuməti insan amilinin inkişafına qoyulan investisiyaların sabit iqtisadi böyümənin və yüksək səmərəli inkişafın əsası olduğunu qəbul etdi. Qahirə konfransından 23 il sonra dünya ölkələrində və xüsusən də Azərbaycanda davamlı iqtisadi böyümənin demoqrafik cəhətlərinin aktual olduğu və tez-tez yeni məzmunla doldurulması simvolikdir. Dövlət siyasəti milli dövlət maraqları əsasında qurulur. Demoqrafik inkişaf səviyyəsi iqtisadi artım səviyyəsinə, dövlətin müdafiə qabiliyyətinə və milli maraqların təhlükəsizliyinə birbaşa təsir edir. Bu baxımdan əhali siyasətinə milli təhlükəsizlik sahəsində siyasi fəaliyyətin əsas elementi kimi baxmaq lazımdır. Demoqrafik proses iqtisadi, siyasi və digər sosial proseslərin təsiri altında inkişaf edir. Bu isə öz növbəsində bütün digər sosial proseslərin gedişatına təsir göstərir. Bu gün qlobal demoqrafik problemin əhəmiyyəti dünya iqtisadiyyatında, xüsusən inkişaf etməkdə olan ölkələrdə sürətli artım təhlükəsini dərk edən bütün dövlətlər tərəfindən tanınır. Əhali artımının iqtisadiyyata təsirinin bəzi məqamlarını nəzərdən keçirəndə qeyd etmək lazımdır ki, say artımı daxili bazarda artıma səbəb olur. Bu amil, xüsusilə milli istehsalın gücləndirilməsinə zəmin yaratdığına görə adambaşına təbii ehtiyatların nisbətinin böyük olduğu inkişaf etməkdə olan və ya az məskunlaşan ölkələrdə təsirli olur. Digər tərəfdən əhalinin artması istehsal miqyaslı iqtisadiyyatların yaranmasına gətirib çıxarır ki, bu da yalnız bir insana lazımi minimum investisiyanı qoymağa imkan verir. Həmçinin əhali kütləsinin artması ilə tələb avtomatik olaraq böyüyür və kapital genişlənməsi də baş verir. Ölüm səviyyəsinin azalması səbəbindən əhalinin artması iqtisadi fayda deməkdir, burada uşaqların əmək yaşına qədər yaşaması və sonrakı əmək fəaliyyəti böyüməleri, tərbiyələri, təhsilləri və s. ilə bağlı xərcləri kompensiya edir.

**Son 10 ildə Azərbaycanda əhali artımı davam etsə də, doğuş sayı 60 faiz azalıb**

Müasir dünyada gender bərabərliyi, ailə institutunun sabitliyi və demoqrafik dəyişikliklər bir-biri ilə sıx bağlı olan, cəmiyyətin strukturuna və gələcəyinə birbaşa təsir göstərən əsas sosial məsələlərdəndir. Demoqrafik dəyişikliklər isə artıq dünyanın bir çox bölgəsində hiss olunan reallıqdır. Yaşlanan əhali, azalan doğum göstəriciləri cəmiyyətin dayanıqlığını təhdid edir. Azərbaycan da bu tendensiyalardan kənarda deyil. Son illər demoqrafik eniş, doğuş sayının kəskin azalması cəmiyyəti ciddi narahat edən məsələlərdən biridir. Ən narahatedici məqamlardan biri də doğum səviyyəsinin azalmasıdır. Məsələn, 2015-ci ildə Azərbaycanda 162 min uşaq doğulubsa, 2024-cü ildə bu, 102 min nəfər olub. Bu rəqəm 2022-ci ildə 122 min 846, 2023-cü ildə 112 min 620, 2024-cü ildə 102 min 310 olub. Rəqəmlər göstərir ki, son 10 ildə Azərbaycanda əhali artımı davam etsə də, doğuş sayı 60 faiz azalıb. 2025-ci ilin sentyabrında birinci sinfə gedən şagirdlərin sayı 2018-ci illə müqayisədə 35 min nəfər azalıb. Bütün bunları necə həll etmək olar və çıxış yolu nədədir?

Sözügedən məsələyə aydınlıq gətirən ekspert Rəsul Cahangirli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sözügedən problem bir sıra məsələlərlə əlaqədardır: "Əvvəla doğum səviyyəsinin azalması təkcə Azərbaycanda müşahidə edilmir. Bir sıra ölkələrdə - həm inkişaf etmiş ölkələrdə, həm də inkişaf etməkdə olan ölkələrdə bu tendensiya müşahidə edilir. Elə ölkə var ki, orada bu özünü daha qabarıq formada göstərir və əhalinin qocalması prosesi sürətlə gedir. Azərbaycanda da doğum səviyyəsinin azalmasının səbəbləri müxtəlifdir. Məsələ ondadır ki, iqtisadi baxımdan aztəminatlılıq, əhalinin böyük qisminin şəhərlərə axın etməsi buna öz təsirini göstərir. Son illər işsizlik üzündən kəndlərdən şəhərə axın xeyli güclənib. Şəhərlərdə çox uşaqlığa önəm verilmir. Çünki şəhərdə tələbatın kəndə nisbətən yüksək olması, qadınların karyera marağı, ailə dəyərlərinin öz gücünü itirməsi və s. doğumun azalmasında rol oynayır. Digər tərəfdən gənclərin çoxu gec ailə qurur. Sanki 30 yaşdan sonra ailə qurmaq gənclər arasında bir ənənəyə çevrilib. Halbuki, 15-20 il əvvəl vəziyyət fərqli idi. Fikrimcə, kompleks sosial tədbirlərin görülməsi doğuş səviyyəsinin artırılmasına stimul verə bilər. Məsələn, uşaqpulunun bərpa edilməsi, doğuma görə analara verilən birdəfəlik müavinətlərin artırılması, çoxuşaqlı ailələr üçün vergi güzəştləri və digər güzəştlər doğum səviyyəsinin azalmasını önləyə bilər. Eyni zamanda, gənc ailələr üçün mənzil proqramlarının genişləndirilməsi yaxşı olar. Xüsusilə dövlət dəstəyi ilə sosial ipotekaların verilməsi şərtləri daha asan və əlçatan olmalıdır".

*Vidadi ORDAHALLI*

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***